**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MƏDƏNİ İRSİN QORUNMASI, BƏRPASI VƏ TƏBLİĞİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞI (1991-2019)

İxtisas: 5507.01- **Beynəlxalq münasibətlər tarixi**

Elm sahəsi: **Tarix**

İddiaçı: **Vüsalə Asif qızı Şərifova**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix elmləri doktoru, professor
**Fuad Teyyub oğlu Məmmədov**

Rəsmi opponentlər: AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor
**Musa Cəfər oğlu Qasımlı**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Yeganə Əziz qızı Hacıyeva**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Şirinbəy Hacıəli oğlu Əliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/ 1 Birdəfəlik Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
____________________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent
____________________ **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
____________________ **İsmayıl Məhərrəm oğlu Musa**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir beynəlxalq münasibətlər sistemində mədəni əməkdaşlıq mədəniyyətin milli və transmilli siyasi maraqların fəal iştirakçısı kimi çıxış etməsinə əsaslanır. Dövlətlərin beynəlxalq mədəni əməkdaşlıqda əsas məqsədi xarici ölkələrlə qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələri qurmaq, öz mədəniyyətini tanıtmaq və təbliğ etmək, bununla həm də öz milli maraqlarını təmin etməkdən ibarətdir. Beynəlxalq mədəni əlaqələr xalqların bir-birinə yaxınlaşması vasitəsi olub, onlar arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə xidmət edir və körpü rolunu oynayır. Dövlətlər arasında mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın prioritet istiqamətləri sırasında mədəni dəyərlərin və mədəni sərvətlərin birgə istehsalı və onların mübadiləsi, nadir tarix və mədəniyyət abidələrinin qorunması, bərpası və təbliği məsələləri xüsusi yer tutur.

Mədəni irsin qorunması və təbliği hazırda beynəlxalq ictimaiyyət üçün aktual mövzu olaraq qalır. Mədəni dəyərlərin müdafiəsi istiqamətində ictimai hərəkatların formalaşması, geniş ictimai müzakirələr, bu mövzuda çoxlu sayda elmi nəşrlər, konfranslar, habelə beynəlxalq normativ hüquqi aktların, dövlətlərarası müqavilələrin, sazişlərin mövcudluğu, bu sahədə beynəlxalq təşkilatların fəaliyyəti bunu deməyə əsas verir. Beləliklə, mədəni irs obyektləri beynəlxalq əlaqələrin möhkəmlənməsində mühüm rol oynayır. Müasir şəraitdə mədəni irs obyektlərinin qorunub saxlanması insan həyatında, cəmiyyətdə, ətraf mühitdə baş verən qlobal dəyişikliklər, sosial-iqtisadi sferada baş verən əsaslı dəyişikliklər, antropogen, ekoloji, texnogen və hərbi xarakterli yeni təhlükələrin meydana çıxması ilə bağlıdır. Bu səbəblər əslində yeni deyil, amma bu gün üçün hələ də aktualdır.[1]

---

[1]Боголюбова,Н. М. Николаева,Ю. В. Охрана культурного наследия: международный и российский опыт// Вестник СПбГУКИ, – № 4 (21) декабрь– 2014 – стр.6.

Mövzunun aktuallığının bir aspekti qloballaşma ilə bağlıdır. Çünki dünyada gedən qloballaşma prosesləri təkcə mədəniyyətlərin qarşılıqlı uzlaşması və qarşılıqlı zənginləşməsi ilə müşayiət olunmur, xalqların və ölkələrin mədəni özünəməxsusluğuna, dəyərlərinə də ciddi təhlükələr yaradır. Qloballaşan dünyada milli özünəməxsusluğu və unikallığı qoruyub saxlamaq və eyni zamanda bəşəriyyətin qlobal inkişaf perspektivlərinin yaratdığı üstünlüklərdən səmərəli istifadə etmək əlavə tədbirlər tələb edir.

Dünyada qlobal inteqrasiya prosesləri çərçivəsində beynəlxalq münasibətlərin həyata keçirilməsi istiqamətində iki mühüm yanaşma vardır: "sərt güc- hard power" və "yumşaq güc- soft power". "Sərt güc" hərbi qüvvə vasitəsilə məcbur etmək anlamına gəlirsə, "yumşaq güc" mədəni dəyərlər və ideyalar vasitəsilə yola gətirə bilmək qabiliyyəti kimi başa düşülür. Nəzərə alsaq ki, mədəniyyət, mədəni dəyərlər "yumşaq güc"ün əsas amillərindən sayılır, o zaman onun qorunması və təbliği məsələsi aktuallığını qoruyub saxlayır.

Mədəni irsin qorunması, bərpası və təbliği Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətini təşkil edir və bu sahədə beynəlxalq əməkdaşlığa böyük önəm verilir. Müstəqilliyin ilk illərində Azərbaycan Respublikasının dövlət mədəniyyət siyasətində mədəni irsin qorunması və təbliğinə xüsusi diqqət yetirilmiş, mənəvi dəyərlərə yüksək qiymət verilmiş və milli mədəni irsin dünyaya inteqrasiyası məsələləri prioritet vəzifələr sırasında olmuşdur. Mədəni irsin qorunmasının vacibliyi "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nda da xüsusi olaraq vurğulanmışdır. Ona görə bu mövzuda tədqiqatların aparılması, yeni-yeni əsərlərin yazılmasını Azərbaycan Respublikasında aparılan məqsədyonlü dövlət mədəniyyət siyasətindən irəli gələn vəzifələr də tələb etməkdədir. Bu cür mədəniyyət siyasətinin nəticələri özünü son dövrlərin bir sıra uğurlu layihələrində də göstərir.

Mədəni irsin qorunması və təbliği problemləri beynəlxalq mədəniyyət təşkilatları tərəfindən də daim diqqətdə saxlanılır. Azərbaycanın bır sıra mədəni irs obyektləri, qeyri-maddi mədəni irs nümunələri YUNESKO-nun irs siyahılarına daxil edilmiş və onların beynəlxalq səviyyədə qorunmasına şərait yaradılmışdır. Bu da

Azərbaycanda milli mədəni irsin qorunması və təbliğinin milli və bəşəri mahiyyət daşımaqla, həm də aktual olduğunu bir daha sübut edir.

Müasir dövrdə beynəlxalq mədəni əməkdaşlıqda Azərbaycan dövləti fəal iştirak edir. Bakıda hələ 2008-ci ilin dekabrında Avropa Şurasına üzv olan ölkələrin mədəniyyət nazirlərinin “Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır” adlı konfransın keçirilməsi, 2009-cu ildə Bakının “İslam mədəniyyətinin paytaxtı” elan olunması, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən keçirilən Milli Kulturoloqların Forumu, 2011-ci ildən Bakıda bir neçə dəfə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq, Bakı Beynəlxalq Humanitar forumları, digər beynəlxalq konfrans və tədbirlər, burada mədəni irslə bağlı problemlərin müzakirəsi Azərbaycanın bu sahəni daim diqqətdə saxladığını göstərir. Milli mədəni irsin qorunması və təbliğində beynəlxalq əməkdaşlıq sahəsində Azərbaycanın əldə etdiyi uğurların ilbəil artması, bu sahədə istər dövlətlər, istərsə də beynəlxalq təşkilatlar səviyyəsində qurulan əlaqələrin geniş təhlili və bu problemin öyrənilməsinə stimul yaratması da mövzunun aktuallığını göstərən səbəblərdəndir.

Bu gün Azərbaycanın milli mədəniyyəti, zəngin irsi ölkəmizin dünyada layiqli yer tutmasının əsas amillərindən biridir. Ənənəvi milli identikliyi qorumaq şərtilə Azərbaycanın dünya mədəni birliyinə inteqrasiya olunmasında milli mədəniyyətin strateji potensialı xususi rol oynaya bilər. Bu amilin özü mədəni irsin qorunması və təbliği məsələsini gündəmə gətirir və bu sahədə beynəlxalq əməkdaşlığın qurulmasını aktuallaşdırır.

Azərbaycanın 30 ilə yaxın erməni işgalına məruz qalan 20 % ərazisinin talan edilib xarabazara çevrilməsi ilə yanaşı, qədim tarixi və mədəniyyət abidələrinin məhv edildiyi, mənimsənildiyi ölkə kimi milli mədəni irsinin qorunması, bərpası və təbliği sahəsində beynəlxalq əməkdaşlığa önəm verməsi çox vacib məsələdir.

Azərbaycanda son illərdə qeyr-neft sektorunun ölkə iqtisadiyyatında payının artırılması istiqamətində həyata keçirilən dövlət siyasəti çərçivəsində diqqət ayrılan ən önəmli sahələrdən biri

də turizm sənayesinin sistemli və fundamental inkişaf etdirilməsidir. Mədəni irs nümunələrinin ən əhəmiyyətli turizm resursu olduğunu nəzərə alsaq, Azərbaycanın mədəni irsin qorunması, bərpası və təbliği sahəsində beynəlxalq əməkdaşlığının təhlili xüsusi aktuallıq kəsb edir.

Dissertasiya işi Azərbaycanın dövlət müstəqilliyinin bərpası dövründən başlayaraq, tədqiqat mövzusunun təsdiqinədək olan mərhələni (1991-2019) əhatə edir. Həmin dövr 1991-2008, 2009-2019-cu illər üzrə araşdırılmışdır. Belə ki, müstəqilliyin əldə olunmasından sonrakı dövr ərzində, təxminən 2008-ci ilə qədər mədəni irsin qorunması və təbliği sahəsində müəyyən addımlar atılsa da, bu dövrü əsasən, sözügedən sahədə qanunvericilik sisteminin formalaşdırılması və təkmilləşdirilməsi dövrü kimi xarakterizə etmək olar. Ancaq 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə "Bakı Prosesi"nin irəli sürülməsi mədəniyyət sahəsində yeni bir mərhələnin əsasını qoymuş oldu. Azərbaycan dünyada yaranmış qlobal problemlərin həllinə köməklik göstərən təşəbbüslərlə çıxış edərək, çoxsaylı beynəlxalq tədbir və layihələri gerçəkləşdirdi. Beynəlxalq mədəni əməkdaşlıq sahəsində xeyli uğur qazanan Azərbaycan, zəngin tarixi və mədəni irsinin qorunması və təbliği işini dövrün tələblərinə uyğun olaraq daha effektiv üsullarla həyata keçirməyə başladı. Mövcud geniş xronoloji çərçivə milli mədəni irsin qorunması, bərpası və təbliğində Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlığının tarixini və istiqamətlərini araşdırmağa, müvafiq nəticələr çıxarmağa və inkişaf perspektivlərini proqnozlaşdırmağa imkan yaradır.

Problemin tədqiqi zəngin mənbəşünaslıq bazasına söykənir. Azərbaycanın beynəlxalq mədəni əməkdaşlığında, əlaqələrin qurulması və inkişafında ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin fəaliyyətlərinin əks olunduğu kitablar tədqiqat prosesində əsas istiqamətverici və baza rolunu oynamış, problem üzrə dəyərli məlumat və faktlarla zəngin mənbə kimi onlardan istifadə olunmuşdur.[2] Bundan başqa Azərbaycan Respublikasının ali

---

[2]Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-98-ci illərdə xarici ölkələrə səfərlərinə dair materiallar I-IV cildlər. / tərtibçi- müəlliflər E.İ.Abdullayev v b. Bakı, – c. 1. – 1996, c.2. – 1997, c.3. – 1998,

qanunverici və icraedici orqanlarının qəbul etdiyi qanun, sərəncam və fərmanlar, imzalanmış rəsmi sənədlər, dövlət proqramları, müvafiq nazirlik və idarələrin hesabatlarından geniş istifadə olunmuşdur.[3] Rəsmi statistik məlumatlar, mədəniyyətin inkişafına istiqamətlənmiş tədbirlər planı, Mədəniyyət Nazirliyinin beynəlxalq təşkilatlar üçün hazırladığı hesabat xarakterli "Milli məruzə", eyni zamanda YUNESKO-nun tövsiyyələri, Avropa Şurası ekspertlərinin hesabatları da istifadə olunan qaynaqlar sırasındadır.[4] Əsas mənbə kimi həmin

---

c.4. – 1999; Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı, – c. 1. – 1997; Əfəndiyev, T. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz / T. Əfəndiyev. – Bakı, – 2011; Heydər Əliyev mədəni irsimizin keşiyində / [ 3 cilddə] – Bakı, – c.1. – 2001; Heydər Əliyev və Şərq [6 cilddə] / red. M.Qurbanlı – Bakı, – c. 3. – 2003; Heydər Əliyev və mədəniyyət (müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar) [3 cilddə] / tərt. ed. S.Məmmədəliyeva, T.Əhmədov – Bakı, – 2008; Prezident İlham Əliyev və mədəniyyət / [2 cilddə] / (2008-2013) lay. rəh. və baş məsl. Ə. Qarayev – Bakı, – c.1. – 2013.

[3] Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı, – 2002; Azərbaycan Respublikasının mədəniyyət və turizm qanunvericiliyi toplusu. [2 cilddə] / tərt. ed. C. Quliyev – Bakı, – 2011; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin beş illik fəaliyyətinə dair hesabat: 2006-2010 / Burax.məs. F.Qurbanov – Bakı, – 2011; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi: 2006-2016 kitab-kataloq / tərt. K.İmanova – Bakı, – 2016; Kitabxana işinə dair normativ sənədlər toplusu: Qanun və qanun qüvvəli sənədlər toplusu / tərt. ed. K. Tahirov – Bakı, – 2001; Mədəni irsin qorunmasına dair normativ hüquqi aktlar toplusu / tərt.ed. R. Tağıyeva – Bakı, – 2001; 2006-2016-cı illər üçün mədəniyyət sahəsində Dövlət İnkişaf Konsepsiyası // –Bakı: Mədəni-maarif, – 2006. № 11, – s.5-9; Azərbaycan Respublikasında 2009-2015-ci illərdə Elmin inkişafı üzrə Milli Strategiya: [Elektron resurs] / URL: https://e-qanun.az/framework/17199; Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı: [Elektron resurs] / URL: http://www.e-qanun.az/framework/15205

[4] Azərbaycan Respublikasının mədəniyyət sektoru və mədəniyyət siyasəti haqqında ilkin analitik hesabata əlavə. Şərq Tərəfdaşlığı ölkələrinin mədəniyyət siyasətinə dair tədqiqatlar və diaqnozlar. Bakı, – 2015; Avropada mədəniyyət siyasəti və təmayülləri kompendiumu Azərbaycan /Layihənin milli müəllifi Y. Hüseynli; Avropa Şurası; ERİKarts (Avropa Müqayisəli Mədəniyyət Araşdırmaları İnstitutu) Bakı, – 2007; Məmmədəliyeva, S. Azərbaycanda mədəniyyət siyasəti. / S. Məmmədəliyeva, N. Axundova – Bakı, – 2003; Mədəniyyətlərarası dialoqa dair Ağ kitab. "Ləyaqətlə Bərabərhüquqlu birgə yaşama" / Strasburq, – 2008; Milli

illərin dövri mətbuatı- qəzet, jurnal və digər nəşrlər, yerli və xarici internet resursları da ətraflı araşdırılmış, müxtəlif monoqrafiyalar, elmi məqalələr, elmi konfrans materialları mövzunun tədqiq edilməsinə yardımçı olmuşdur.[5]

Nəzəri və praktiki cəhətdən dünyada mədəni irsin qorunması probleminə antik dövrlərdən diqqət yetirilsə də, XIX əsrdə bu sahəyə maraq daha da artmışdır. Bununla belə problemə peşəkar yanaşma, müxtəlif tədqiqat işlərinin yazılması və mövzuya cəmiyyətin diqqəti baxımından XX əsrin II yarısını xüsusi qeyd etmək lazımdır. Dünya mədəni irsi, onun qorunması və bərpası, təbliği, bu sahədəki problemlər və yeniliklər alman alimi J.Asmanın[6] "Kollektiv yaddaş və mədəni kimlik", amerikalı alim V.Laypın[7] "Mədəni sərvətlərdə dəyər

---

mədəniyyət siyasətlərinin icmalları uzrə Avropa proqramı. Azərbaycan Respublikasında mədəniyyət siyasəti: Avropa Şurasının "STAGE" layihəsi: [məruzələr] / tərt. ed. S. Məmmədəliyeva – Bakı, – 2002; YUNESKO-nun beynəlxalq normativ aktları: konvensiyalar, sazişlər, protokollar, tövsiyələr, bəyannamələr/ burax. məsul R. Abutalıbov – Bakı, – 1998; Нормативные акты ЮНЕСКО по охране культурного наследия // конвенции, протоколы, резолюции, рекомендации / Москва,– 2002; Среднесрочная стратегия ЮНЕСКО: [Електронный ресурс]/
URL:https://www.culture29.ru/upload/medialibrary/55e/55e4091a4240fb579559f1e1891da111.pdf

[5] Azərbaycan-İSESKO əməkdaşlığı genişlənir // Xalq qəzeti. –2010, – 21 may. – s.11; Bayramova, İ.Z. Azərbaycan Respublikasının regionlarının kitabxana-informasiya resurslarının yerləşməsinin vəziyyəti // Bakı: BDU, Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, – 2011. №2, – s. 250-258.; Baxşəliyeva, G.B. Heydər Əliyev və İslam Əməkdaşlıq Təşkilatı // Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş "Humanitar elmlərin aktual problemləri" mövzusunda II Beynəlxalq elmi konfransın materialları, – Bakı, – 2013; İsmayılov, F.İ. İşğal altındakı Azərbaycan ərazilərində xristian və islam dini abidələrinin qəddarlıqla məhv edilməsi // "Qafqazda mədəni-dini irsin qorunması" adlı beynəlxalq elmi konfransın tezislər toplusu, – Bakı, – 2015, – s. 18-25.
Ermənilərin Qarabağda məhv etdikləri maddi mədəniyyət abidələrimizə həsr olunan konfrans keçirilib: [Elektron resurs] / AMEA-nın rəsmi internet səhifəsi. URL: https://science.gov.az/ru/news/open/15511

[6] Assmann, J. Collective memory and cultural identity // New German Critique, – Cultural history/ Cultural studies (Spring-Summer), – 1995. № 65, – pp.125-133.

[7] Lipe, W.D. Value and meaning in cultural resources // Cultural heritage. Critical concepts in media and cultural studies, – London, – 2006. – pp. 286-306.

və məna", isveçli tədqiqatçılar T. Nilson və K.Sorelin[8] "Mədəni irsin qorunması: dünən, bu gün, sabah", L.A.Viktoroviçin[9] "Mədəni irs davamlı inkişafın resursu kimi", türkiyəli tədqiqatçı M.Tunçerin[10] "Mədəni irs və onun əhəmiyyəti" adlı elmi əsərlərdə, mədəni irsin qorunması və bərpası sahəsində beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi, bu əməkdaşlıqda beynəlxalq təşkilatların rolu, beynəlxalq hüquq normaları, qəbul edilən sənədlər rus tədqiqatçıları A.S. Sokolovanın[11] "Mədəni irs YUNESKO-nun mühafizə obyekti kimi", "Mədəni sərvətlərin hüquqi mühafizəsinin tarixi", P.A. Kostyukovanın[12] "Mədəni sərvətlərin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq", P.A. və A.V.Kostyukovaların[13] "Mədəni sərvətlərin mühafizəsi sahəsində beynəlxalq hökumətlərarası təşkilatlar", M.Borianinin[14] "Şəhər bərpası, mədəni irs və beynəlxalq əməkdaşlıq" və digər elmi-tədqiqat işlərində, P.Şeranın[15] "Beynəlxalq münasibətlərdə mədəniyyət siyasəti" və digər kitablarda geniş təhlil edilir. Diqqət çəkən elmi əsərlərdən biri litvalı araşdırmaçı alim

[8] Nilson, T. Cultural heritage preservation: The past, the present and the future/ K. Thorell, – Sweden, – 2018.

[9] Викторович, Л.А. Культурное наследие как ресурс устойчивого развития: / канд. дис. культурологических наук / – Москва, – 2004.

[10] Tunçer, M. K. Külturel miras ve önemi // Türk yurdu, – Qazi Kitabevi, – 2017. № 106, – s. 42-48.

[11] Соколова, А.С. Культурное наследие как объект охраны ЮНЕСКО // Труды Санкт Петербургского государственного института культуры,– Санкт Петербург, – 2010, – с. 311-318; Соколова, А.С. История правовой защиты культурных ценностей // Труды Санкт Петербургского государственного института культуры, – Санкт Петербург, – 2009, – с. 320-325.

[12] Костюкова, П.А. Международное сотрудничество в области защиты культурных ценностей // Ученые записки Новгородского государственного университета имени Ярослава Мудрого, – 2016. – № 3 (7), – с. 205-209.

[13] Костюкова, П.А. Международные межправительственные организации в области защиты культурных ценностей / П.А. Костюкова, А.В. Костюкова // Научные известия, – 2016. – с. 112-115.

[14] Boriani, M. Urban restoration, cultural heritage and international cooperation // Sustainable Conservation and Urban Regeneration, – 2018. – pp.123-137.

[15] Sheeran, P. Cultural politics in international relations. – London, – 2001.

R.Çepaytenenin[16] “Qloballaşan dünyada mədəni irs” adlı monoqrafiyasıdır. Dünyada mədəni irsin mühafizəsi probleminə toxunan müəllif qeyd edir ki, həyatın bütün sferalarına təsir edən qloballaşma yalnız müasir mədəni təcrübə və vərdişlərə deyil, maddi və qeyri-maddi mədəni irsə münasibətə, onun mühafizəsinə də təsir göstərir. Maddi və qeyri-maddi mədəni irsin müqayisəli təhlilinə xüsusi yer ayıran müəllif, ayrı-ayrı ölkələrdə qeyri-maddi irsin qorunması, bu irs nümunələrinin təsnifatına ayrıca toxunur. Kitabda “maddi irs” anlayışına tarixi və müasir aspektdən yanaşılır, fərdi və kollektiv identikliyin (özünəməxsusluq) qorunması qloballaşan dünyanın əsas problemi kimi vurğulanır.

Rus tədqiqatçısı A.A.Aleksandrov[17] “Mədəni irs sahəsində beynəlxalq əməkdaşlıq” kitabında mədəni irsi beynəlxalq münasibətlərin xüsusi “obyekti” kimi vurğulayır və qeyd edir ki, bəşəriyyət onu nəinki gələcək üçün qoruyub saxlamağa, həm də bu gün üçün mümkün qədər səmərəli istifadə etməyə çalışmalıdır. Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın əhəmiyyətinə toxunan müəllif, onu hər bir dövlətin xarici siyasət məqsədlərinə nail olmasında önəmli vasitə sayır. Tədqiqatçı mədəni irsin qorunmasında beynəlxalq təşkilatların fəaliyyəti, vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının beynəlxalq mədəni mübadilədə iştirakı və s. kimi məsələlərə toxunur.

Mövzu ilə bağlı türkiyəli prof. M.Çakırın[18] redaktorluğu ilə nəşr olunan “Mədəni irsin idarə edilməsi” adlı elmi əsərlər toplusu da diqqəti cəlb edir. Kitabda mədəniyyət və turizm arasında bağlılıq, “mədəni turizm”, “mədəni irs turizmi” kimi anlayışların izahına geniş yer verilir, mədəni irsin qorunması, önəmi və bunun turizm sektoruna birbaşa təsiri məsələsi önə çıxarılır. Qloballaşma və onun təsirilə mədəniyyət sahəsində baş verən dəyişikliklər, tarixi prosesdə formalaşan mədəni müxtəliflik və onun xalqların, dövlətlərin

---

[16] Чепайтене, Р. Культурное наследие в глобальном мире/ Р.Чепайтене. – Вильнюс, – 2010.

[17] Александров, А. Международное сотрудничество в сфере культурного наследия / А. Александров. –Москва, –2010.

[18] Çakır, M. Kültürel miras yönetimi / M.Çakır. – Eskişehir, – 2011.

inkişafında oynadığı rol, qarşılıqlı mədəni əlaqələr də toxunulan problemlər sırasındadır. Topluda mədəni irsin qorunduğu ən önəmli məkanlardan biri kimi muzeylərin rolu xüsusilə vurğulanır, daşınar və daşınmaz mədəni irs nümunələrinin qorunması, bərpası və bütövlükdə bu irsi gözləyən təhlükə və müdaxilədən qorunma yolları araşdırılır.

Avstraliyalı tədqiqatçı Q. Aplin[19] "İrs, identifikasiya, qoruma və idarəetmə" adlı kitabında "irs" kateqoriyasına gələcək nəsillər üçün qorunub saxlanılması önəmli olan, dəyər verilən bütün dünya elementlərini daxil edir. Müəllif tarixi ərazilərdən və tikililərdən tutmuş, bütün mədəni və milli irsi təşkil edən daşınar və daşınmaz irs nümunələrinə toxunur. Mədəni irsin qorunması və idarə olunması, milli azlıqların tarixi irsinə münasibət və s. mövzular YUNESKO konvensiyaları və digər beynəlxalq müqavilələrin müddəaları nəzərə alınaraq araşdırılır, müqayisələr aparılır.

Müasir mərhələdə milli mədəni irsin qorunması, bərpası və təbliğində Azərbaycan Respublikasının beynəlxalq mədəni əməkdaşlığı tarixşünaslıqda ayrıca olaraq öyrənilməmişdir. Lakin müstəqil Azərbaycan Respublikasının ayrı-ayrı ölkələrlə ikitərəfli əlaqələrinin müxtəlif aspektləri və bu əməkdaşlıqda mədəni əlaqələrin inkişaf perspektivləri, milli mədəni irsin təbliği ilə bağlı görülən işlərə həsr olunmuş tədqiqat işləri az deyil. Azərbaycan Respublikasının xarici siyasətinin problemləri, əsas istiqamətləri və prioritet sahələrindən bəhs edən tədqiqat əsərlərində, elmi məqalə və monoqrafiyalarda dövlətin mədəniyyət sahəsindəki fəaliyyətinə toxunulmuş, tarixi mədəni irs və turizm, mədəni irs və nəsillər arasında bağlılıq, mədəni irs və məsuliyyət və digər mövzular ətraflı araşdırılmışdır.

T.e.d., prof. F.T.Məmmədov[20] bir sıra elmi məqalə və monoqrafiyalarında Azərbaycan xalqının mədəni irsinin qorunması və

---

[19] Aplin, G. Heritage, identification, conservation and management / G.Aplin. – London, – 2002.

[20] Məmmədov, F.T. Müstəqil Azərbaycan Respublikasının mədəniyyət siyasəti konsepsiyasına dair // – Bakı: Təməl/ – 2008. – s. 3-8.; Kultrologiya. Mədəniyyət. Sivilizasiya. Bakı, – 2016; Культура–как путь к спасению.-Диалог культур–в условиях глобализации// Международные Лихачевские научные чтения/

təbliğinin vacibliyini önə çəkmiş, fərdi və beynəlxalq münasibətlər mədəniyyətinin inkişafı, həmçinin respublikanın tərəqqisi naminə dünyanın müxtəlif xalqlarının sosial-mədəni inkişaf təcrübəsinin öyrənilməsi və yaradıcı istifadəsinə yardımı nəzərdə tutan təkliflərlə çıxış etmişdir. İnsan və cəmiyyətin inkişafı üçün mədəni dəyərlərin, irsin daimi əhəmiyyətini nəzərə alan alim, ictimai şüurda və Azərbaycanın inkişafında mədəniyyətin üstünlüyünü, milli mədəniyyətlərin qarşılıqlı əlaqəsi və qarşılıqlı zənginləşməsi problemlərini tədqiq etmişdir.

Tədqiqat predmeti ilə bu və ya digər dərəcədə əlaqəsi olan elmi araşdırmalar içərisində S.T.Vəliyevin[21] "Azərbaycanın beynəlxalq mədəni əlaqələri kontekstində mədəni irsin qorunması və təbliği problemləri" adlı dissertasiya işi diqqəti cəlb edir. Burada müəllif mövzuya daha çox nəzəri və kultroloji-fəlsəfi aspektdən yanaşmışdır. Tədqiqat işində mədəni əlaqələrdə mədəni və mənəvi dəyərlərin

---

Санкт-Петербург, – 2011. – с. 346-347; Современные глобальные вызовы, национальные интересы и мультикультурализм// XVI Международные Лихачевские научные чтения/ Санкт-Петербург, – 2016. – с. 424-427; Низами Гянджеви как великий творец духовной культуры: культурологический портрет гениального азербайджанского мыслителя// Dövlət idarəçiliyi, – 2021. – №3, – s.91-104; //Лига культуры- № 21, – 2022. – с.39-46; Культурологический портрет Имадеддина Насими в зеркале мирового гуманизма// Dövlət İdarəçiliyi, –2019. – №3, – s. 61-75 //Лига культуры- №15, – 2019. – с.68-75; Сущность и ценность социально-культурной политики в Азербайджанской Республике// Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – 2011. – №4, – s.154-160; ЮНЕСКО, культурные ценности и культурологическое образование// Elm və cəmiyyət, Bakı:2004. – s. 277-285; Культура как условие и основа устойчивого развития// В сб. Межкультурное взаимодействие России и Китая: глобальное и локальное измерение: коллективная монография / отв. ред. А. Н. Чумаков, Ли Хэй, – Москва, – 2019. – с.56-65; Культура Азербайджана в контексте мировой цивилизации// Известия Российкой Академии педагогических и социальных наук, – Москва, – 2006. – т.10, – с.337-342; Гейдар Алиев и развитие культуры государственного управления в Азербайджанской Республике// Dövlət idarəçiliyi (Xüsusi buraxılış) – 2013. – №2, – s.99-109.

[21] Vəliyev, S.T. Azərbaycanın beynəlxalq mədəni əlaqələri kontekstində mədəni irsin qorunması və təbliği problemləri: / fəlsəfə üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2010.

kulturoloji mahiyyəti, müasir insanın mədəni irsə münasibəti, mədəni irsin qorunması və mədəni varislik məsələlərinə daha çox diqqət yetirilmişdir. Dissertasiya işinin II fəslində beynəlxalq mədəni əməkdaşlıq sahəsində dövlət təminatı məsələsinə yer ayrılmış, mədəniyyətin müxtəlif sahələri üzrə (kino,teatr, musiqi və s.) Azərbaycan Respublikasının əməkdaşlığına toxunulmuşdur.

"Mədəni irsin qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsi problemləri və Azərbaycan Respublikasının qanunvericilyi" adlı monoqrafiyasında isə S.A.Süleymanlı[22] mədəni irsin qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsini şərtləndirən amilləri təhlil etmiş və bu tənzimlənmə Azərbaycan qanunvericiliyi ilə qarşılıqlı münasibətlər müstəvisində tədqiq edilmişdir.

Tarix üzrə fəlsəfə doktoru, dos. N.Babaxanova[23] "Əlyazmaların tədqiq və təbliği sahəsində beynəlxalq əlaqələr" monoqrafiyasında Azərbaycan mədəniyyətinin bir parçası olan qədim əlyazmaların tədqiq və təbliği sahəsində aparılan beynəlxalq fəaliyyətin tarixinə, elmi-nəzəri və elmi-praktiki məsələlərə toxunmuşdur. Xarici ölkələrdəki Azərbaycan əlyazmalarının repatriasiyası, qarşıya çıxan maneələr, əlyazmaların toplanmasında böyük xidmətləri olmuş şəxsiyyətlər haqqında maraqlı faktlar, əlyazmaların tədqiq və təbliği sahəsində beynəlxalq inteqrasiyanın müqavilə-hüquqi bazası kimi problemlərin ətraflı araşdırılması xüsusilə diqqəti cəlb edir.

Tədqiqat predmeti ilə müəyyən qədər əlaqəsi olan digər bir araşdırma A.R.Əliyevanın[24] "Heydər Əliyev Fondu və Azərbaycan Respublikasında təhsil və səhiyyənin inkişafı" adlı dissertasiya işidir. Tədqiqat işinin III fəslində Heydər Əliyev Fondunun mədəni irsin qorunması və təbliği istiqamətində həyata keçirdiyi layihələrdən bəhs

---

[22] Süleymanlı, S. Mədəni irsin qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsi problemləri və Azərbaycan Respublikasının qanunvericiliyi / S.Süleymanlı. – Bakı, – 2018.

[23] Babaxanova, N.Əlyazmaların tədqiq və təbliği sahəsində beynəlxalq əlaqələr / N.Babaxanova. – Bakı, – 2022.

[24] Əliyeva, A.R. Heydər Əliyev Fondu və Azərbaycan Respublikasında təhsil və səhiyyənin inkişafı: /tarix üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2011.

olunur, bu sahədə YUNESKO ilə əməkdaşlığın müsbət nəticələri araşdırılır.

İ.H. Əliyevanın[25] "Azərbaycan bayramları və milli mənəvi dəyərlərimiz" adlı elmi-tədqiqat işində isə mədəni inteqrasiya və qloballaşma şəraitində Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması, tarixi mədəni varisliyin mühafizəsi kontekstində milli-mənəvi dəyərlərə verilən qiymət və onların qorunması problemləri araşdırılmışdır.

"Azərbaycan Respublikasının beynəlxalq əlaqələrində YUNESKO-nun rolu" adlı tədqiqat işində A.R. Fərmanova[26] Azərbaycan-YUNESKO münasibətlərini geniş təhlil edilmiş, bu qurumla münasibətlərin möhkəmlənməsində Heydər Əliyev Fondunun fəaliyyətinə toxunulmuşdur. Azərbaycanın mədəni əlaqələrinin genişlənməsində YUNESKO ilə əməkdaşlığın rolu yüksək qiymətləndirilmiş, mədəni irsin qorunması və təbliği məqsədilə reallaşan birgə layihələr, Azərbaycanın sivilizasiyalararası və mədəniyyətlərarası dialoq sahəsində göstərdiyi təşəbbüslər xüsusi vurğulanmışdır.

S.A. Əhədovanın[27] "Müasir dünyada mədəniyyətlərarası münasibətlər" adlı monoqrafiyasında müasir beynəlxalq münasibətlərdə və dünya siyasətində mədəniyyətlərin artan təsiri və əlaqəsi, mədəniyyətlərarası dialoq və əməkdaşlıq, multikulturalizm məsələləri təhlil edilmiş, bu sahədə Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət işıqlandırılmışdır.

"Müasir şəraitdə Azərbaycan dövlətinin mədəniyyət siyasəti və mənəvi dəyərlərin inkişaf amilləri" adlı monoqrafiyada N.Ə. Abbasov[28] Azərbaycanın milli mədəniyyət siyasətinin tədqiqinə

---

[25] Əliyeva, İ.H. Azərbaycan bayramları və milli mənəvi dəyərlərimiz: / kultrologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2004.

[26] Fərmanova, A.R. Azərbaycan Respublikasının beynəlxalq əlaqələrində YUNESKO-nun rolu: / siyasi elmlər üzrə fəlsəfə doktoru dis./ – Bakı, 2016..

[27] Əhədova, S. Müasir dünyada mədəniyyətlərarası münasibətlər/ S.Əhədova. – Bakı, – 2014..

[28] Abbasov, N.Müasir şəraitdə Azərbaycan dövlətinin mədəniyyət siyasəti və mənəvi dəyərlərin inkişaf amilləri/ N.Abbasov. – Bakı, – 2008.

xüsusi diqqət ayırmış, mənəvi dəyərlərin Azərbaycan kulturoloji düşüncəsindəki özünəməxsus xüsusiyyətlərini tarixi inkişaf fonunda araşdırmışdır. Müəllif əsərdə mədəni irsin qorunması vəzifəsinin dövlət siyasətindəki metod və üsullarını da təhlil etmişdir.

Son illərin elmi araşdırmalarından olan "XIX-XX əsrin əvvəllərində Təbriz şəhərinin mədəni irsi" adlı dissertasiya işində isə Təbriz şəhəri ilk dəfə olaraq tarixi-etnoqrafik baxımdan tədqiqat obyektinə çevrilmişdir. Müəllif İ.G.Məmmədova[29] tarixi mənbələr, çöl-etnoqrafik materialları əsasında Təbrizin XIX-XX əsrin əvvəllərinə aid mədəni irsini kompleks şəkildə araşdırmış, Təbrizin simasında Azərbaycanın şəhər mədəniyyətini tədqiq etmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Respublikasının mədəni irsinin qorunması, bərpası və təbliğinin öyrənilməsi təşkil edir. Tədqiqatın predmetini mədəni irsin qorunması, bərpası və təbliğində Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlığının dinamik inkişafının, həyata keçirilmə metodları və formalarının, bu əməkdaşlığa siyasi-hüquqi baza yaradan müqavilələrin və sənədlərin araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın qarşısında qoyulan əsas məqsəd Azərbaycanın müstəqillik əldə etdiyi 1991-ci ildən 2019-cu ilə qədərki dövr ərzində milli mədəni irsin qorunması, bərpası və təbliği sahəsində beynəlxalq əməkdaşlığını araşdırmaq, bu sahədə həyata keçirilən dövlət siyasətinin elmi təhlilini verməkdir. Bunun üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- Mədəniyyət amilinin dövlətin beynəlxalq imicinin formalaşmasında və onun beynəlxalq fəaliyyətində təsirinə dair müxtəlif elmi yanaşmaları nəzərdən keçirmək;
- Azərbaycanda milli mədəni irsin qorunması və təbliği sahəsində beynəlxalq əməkdaşlığın hüquqi-normativ əsaslarının təhlilini vermək;

[29] Məmmədova, İ.G. XIX-XX əsrin əvvəllərində Təbriz şəhərinin mədəni irsi (tarixi-etnoqrafik tədqiqat): / tarix üzrə elmlər doktoru dis. / – Bakı, 2016.

- Qloballaşma və mədəni inteqrasiya şəraitində Azərbaycanın milli mədəni irsinin mühafizəsi problemini araşdırmaq, 1991-ci ildən 2019-cu ilə qədər Azərbaycanın kino, teatr, muzey, kitab irsinin, qeyri-maddi mədəni irs nümunələrinin, tarix və mədəniyyət abidələrinin mühafizəsi sahəsində görülən işlərin xronoloji ardıcıllıqla təhlilini aparmaq;
- Azərbaycanın ikitərəfli mədəni əlaqələrində milli mədəniyyətin inkişaf etdirilməsi və təbliği siyasətinin araşdırılması;
- Mədəni irsin qorunması, bərpası və təbliğində Heydər Əliyev Fondunun roluna nəzər salmaq və həyata keçirilən layihələri təhlil etmək;
- Azərbaycanın mədəni-tarixi irsinin qorunması və təbliğində beynəlxalq təşkilatlarla olan əməkdaşlığı araşdırmaq;
- Azərbaycanın milli mədəni irsinə qarşı Ermənistanın təcavüzkar siyasətinin dünya ictimaiyyəti və siyasi dairələrin diqqətinə çatdırılması yönündə dövlət səviyyəsində görülən tədbirlərin təhlili.

**Tədqiqat metodları.** Dissertasiya işinin nəzəri və metodoloji əsasını mədəni əlaqələrdə milliliklə bəşəriliyin dialektik vəhdəti, mədəni əməkdaşlığın xronoloji təhlili, tədqiqatçı və mütəxəssislərin Azərbaycan Respublikasının beynəlxalq mədəni əməkdaşlığının təhlilinə dair tədqiqatlarının müddəaları və onların problemə nəzəri yanaşmaları təşkil edir. Problemin araşdırılmasında tarixilik prinsipi, müqayisəli təhlil, problemə kompleks yanaşma metodlarından istifadə edilmişdir. Araşdırma işi tarixi faktlar və təhlillər əsasında yazılmış, hadisələrin işıqlandırılmasında xronoloji ardıcıllığa diqqət yetirilmişdir. Təhlil zamanı səbəb-nəticə əlaqələri də nəzərə alınmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Milli mədəni irsin qorunması və inkişaf etdirilməsi dövlətin milli təhlükəsizliyinin təmin olunmasında başlıca amildir.
2. Azərbaycan Respublikasının dövlət mədəniyyət siyasətində milli mədəni irsin qorunması, bərpası və təbliği əsas yer tutur.
3. Müstəqilliyin ilk illərində mədəni sərvətlərin qorunması sahəsində əsas diqqət qanunvericiliyin təkmilləşdirilməsinə yönəlmişdirsə, 2008-ci ildən sonra müsbət nəticələr konkret layihələrin timsalında

özünü göstərmiş, dövlətin mədəniyyət siyasətinin əsas prioritetinə çevrilmişdir.
4. Ölkə ərazisində yaşayan azsaylı xalqların mədəniyyəti Azərbaycan mədəniyyətinin ayrılmaz hissəsi kimi mühafizə olunur.
5. Azərbaycan dövləti daim sadiq qaldığı multikulturalizm siyasətini qlobal müstəvidə həyata keçirməklə mədəniyyətlərarası və dinlərarası dialoq platformaları yaratmışdır.
6. Humanitar-mədəni əməkdaşlığın, müxtəlif ölkələrlə ikitərəfli beynəlxalq mədəni əlaqələrin səmərəliliyinin artırılması Azərbaycanın xarici siyasətinin əsas vəzifələrindən biridir.
7. Azərbaycanın maddi mədəni irsinə qarşı Ermənistanın vandalizm siyasətinin ifşası istiqamətində Azərbaycan dövlətinin apardığı sistemli iş, problemin beynəlxalq ictimaiyyətə çatdırılması və daim diqqətdə saxlanılmasına xidmət edir.

**Tədqiqatın elmi yeniliyi.** İşin elmi yeniliyi mövzunun qoyuluşu ilə müəyyən olunur və bır sıra müddəalarda əksini tapır:
- Milli mədəni irsin qorunması, bərpası və təbliğində Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlığı məsələsi ilk dəfə olaraq müstəqil təhlil əsasında tədqiqat obyektinə çevrilmişdir.
- Azərbaycanın teatr, kino, musiqi, muzey, kitabxana və s. irsinin, tarixi abidələrinin qorunması, bərpası və təbliği, bu sahədə həyata keçirilən layihələr sistemli və xronoloji ardıcıllıqla təhlil edilmişdir.
- Azərbaycanın bu sahədəki beynəlxalq əməkdaşlığının hüquqi-normativ əsasları və qanunvericilik bazası araşdırılmışdır.
- Azərbaycanın milli mədəni irsinin qorunması, bərpası və təbliği ilə bağlı aidiyyatı olan müəssisələrin (kitabxana, muzey, teatr və s.) beynəlxalq əməkdaşlıqda iştirakı məsələsi tədqiq edilmişdir.
- Mədəni irsin qorunması, bərpası və təbliğində Heydər Əliyev Fondunun gördüyü işlər ardıcıllıqla və konkret faktlara əsaslanaraq təhlil edilmiş, milli mədəniyyətin təbliğində beynəlxalq təcrübənin tətbiqi və onun müsbət nəticələri araşdırılmışdır.
- Azərbaycanın mədəni irsinin qorunması, bərpası və təbliği problemi AŞ, Avropa İttifaqı, ICOM, ISESCO, YUNESKO və digər beynəlxalq təşkilatlarla əməkdaşlığın əsas istiqaməti kimi tədqiqata cəlb edilmiş,

çoxtərəfli münasibətlərin nəticəsi olaraq reallaşan qlobal layihələrdə Azərbaycanın iştirakı araşdırılmışdır.
- Azərbaycanın milli mədəni irsinə qarşı Ermənistanın təcavüzkar siyasətinin ifşası, bu yöndə atılan addımlar, dövlətin həyata keçirdiyi tədbirlərin ardıcıl və sistemli təsnifatı verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin müddəaları və yekun nəticələri faydalı ola bilər:
- müxtəlif dərsliklərin hazırlanmasında;
- Azərbaycanın diplomatiya tarixinə və müasir beynəlxalq mədəni əlaqələrinə dair ümumiləşdirilmiş kitabların yazılmasında;
- Azərbaycan Respublikasının beynəlxalq mədəni əməkdaşlığının müxtəlif istiqamətlərinə dair yeni elmi əsərlərin yazılmasında;
- Beynəlxalq münasibətlər tarixinə dair ümumiləşdirilmiş əsərlərin yazılmasında;
- Mühazirə və seminar məşğələlərin keçirilməsində;
- Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Heydər Əliyev Fondu və müxtəlif mədəniyyət müəssisələrinin, mərkəzlərin xarici ölkələrlə mədəni əməkdaşlıq fəaliyyətinin planlaşdırılmasında.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrasının 11 iyul 2023-cü il tarixli iclasında (protokol № - 14) müzakirə olunaraq müdafiəyə tövsiyə olunmuşdur. Tədqiqatın müddəa və nəticələri müəllifin elmi məqalələrində və konfrans materiallarında əks olunmuşdur. Əsas müddəalar respublika və beynəlxalq elmi konfranslarda, seminarlarda edilən çıxış və məruzələrdə, Azərbaycanda və xarici ölkələrdə çap olunan elmi məqalələrdə aprobasiya olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrası.

**Dissertasiyanın struktur bölmələri daxil olmaqla ümumi həcmi:** Dissertasiyanın struktur bölmələri olan Giriş 23606, I Fəsil 95536, II Fəsil 64639, III Fəsil 94630, Nəticə 6865 olmaqla, ümumi həcmi 287912 işarə təşkil edir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "**Giriş**"ində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, aprobasiyası və tətbiqi, dissertasiyanın həcmi və strukturu haqqında məlumat verilmişdir.

Dissertasiya işinin I fəsli "**Qloballaşma kontekstində Azərbaycan Respublikasında mədəni irsin qorunması siyasəti**" adlanır. Bu fəslin **"Dövlətin beynəlxalq fəaliyyətində mədəniyyət amilinin təsirinə dair nəzəri yanaşmalar"** adlanan birinci yarımfəslində mədəniyyət və sivilizasiya anlayışlarının qarşılıqlı analizi aparılmış, müxtəlif alimlərin yanaşmaları təhlil edilmiş, "mədəniyyət" anlayışının beynəlxalq hüquqi sənədlərdəki izahı ilə bağlı qeydlərə aydınlıq gətirilmişdir.

Müasir dövrdə hər bir dövlətin beynəlxalq imicinin formalaşmasında, dövlətin beynəlxalq fəaliyyətində mədəniyyət amilinin rolu böyükdür. Yarımfəsildə bu problemə xüsusi yer ayrılmış, ayrı-ayrı müəlliflərin elmi-nəzəri yanaşmaları təhlil edilmişdir. Mədəniyyət amili baxımından dövlətin imicinin formalaşdırılması mexanizmlərini fransız filosofu və sosioloqu P. Burdye "Mədəniyyətin simvolik kapitalı" konsepsiyasında, amerikalı politoloq C.Nay isə "Yumşaq güc" nəzəriyyəsində açmağa çalışmışdır.[30] Nay "yumşaq güc"ə sahib olmaq üçün ölkənin dəyərlərini 3 hissəyə ayırır: ölkənin mədəniyyəti, siyasi dəyərləri **və** xarici siyasəti.[31] Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlət siyasətində "yumşaq güc" amilini tətbiq etməyə başlamışdır. Bu gün də xalqın özünəməxsus milli-mənəvi dəyərləri "yumşaq güc"ə çevrilərək, Azərbaycanın dünyadakı nüfuzunu artırmağa kömək edir.

---

[30] Чеботарева, Н.И. Роль культурного фактора в формировании международного имиджа государства // Культура: теория и практика, – Москва, – 2017, – выпуск 3 (18), стр. 131-139.

[31] Nye, J. Soft power. Foreign Policy No. 80, Twentieth Anniversary , – 1990. – pp. 153-171.

Yarımfəslin sonunda beynəlxalq münasibətlərlə bağlı irəli sürülən nəzəriyyələrdə qlobal mövzu və problemlərin izahı, təhlili zamanı mədəniyyətin əsas rol oynadığı bir daha üzə çıxır. Vurğulanır ki, yalnız hərbi-siyasi, iqtisadi, təhlükəsizlik kimi vacib amilləri diqqətdə saxlamaqla beynəlxalq münasibətləri dərindən öyrənmək qeyri-mümkündür.

İkinci yarımfəsil **"Azərbaycanda milli mədəni irsin qorunması və təbliğində beynəlxalq əməkdaşlığın hüquqi-normativ əsasları"** adlanır. Beynəlxalq mədəni əməkdaşlığın tərkib hissəsi olmaqla mədəni irsin qorunmasının təmin edilməsi hüquq normalarına, müəyyən prinsiplərə riayət edilməsi şərtilə həyata keçirilir. Maddi və qeyri-maddi mədəni irsin mühafizəsi, bərpası və təbliği sahəsində Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlığı dövlətin bu sahədəki qanuvericilik bazasına əsaslanır, hüquqi normativ sənədlərlə tənzimlənir. Ölkənin mədəni irsin qorunması sferasındakı qanunvericiliyi zəngin və özünəməxsus olmaqla bərabər mədəniyyət sahəsində əsas fəaliyyət istiqamətlərini də əhatə edir. Bu qanunvericiliyin əsasında Azərbaycan Respublikasının Konstitusiyası dayanır. Konstitusiyanın 10, 12, 40, 71, 77, 148, 151 və s. maddələri Azərbaycan Respublikasında mədəni irsin qorunmasının konstitusiya-hüquqi əsasını təşkil edir.[32] Yarımfəsildə mövcud qanun və normativ hüquqi sənədlərdə mədəni irsin qorunması, bərpası və təbliği ilə bağlı Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlığının forma və prinsipləri araşdırılmış, əsas müddəaların təhlili verilmişdir. Araşdırmalardan belə məlum olmuşdur ki, mədəni irsin beynəlxalq-hüquqi tənzimlənməsi dövlətdaxili qanunvericiliyin beynəlxalq hüquq normalarına uyğun olmasını şərtləndirir. Zaman keçdikcə, ölkə inkişaf etdikcə mədəni irsin qorunması və bərpasına, təbliğinə də tələbat artır. Bu da mövcud qanunvericiliyin təkmilləşdirilməsi, müəyyən dəyişikliklərin edilməsi zərurətini yaradır.

I fəslin üçüncü yarımfəsli isə **"Qloballaşma və mədəni inteqrasiya şəraitində Azərbaycanın milli mədəni irsinin**

---

[32] Azərbaycan Respublikasının Konstitusiyası// [İnternet resursu] URL: /https://www.e qanun.az/framework/897.

**mühafizəsi problemi"** adlanır. Müasir dövrdə xalqların milli özünəməxsusluğunu sübut edən önəmli amil kimi mədəni irsin tədqiqi və qorunması bütün dünyanı narahat edən aktual problemə çevrilmişdir. Qloballaşmanın təsirlərini nəzərə alan Azərbaycan dövləti də milli mədəniyyətin özünəməxsusluğunun qorunmasını Milli Təhlükəsizlik Konsepsiyasında (2007, 23 may) dövlət siyasətinin əsas strateji hədəflərindən biri kimi vurğulayır.[33]

Tədqiq etdiyimiz illər ərzində (1991-2019) Azərbaycanda milli mədəni irsin mühafizəsi sahəsində müəyyən çatışmazlıqlar olsa da, kino, teatr, qeyri-maddi mədəni irs, muzey irsi və digər mədəni sərvətlərin qorunması prosesi sürətlə davam etdirilmişdir. Müstəqilliyin ilk illərində əsas diqqət bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinə yönəlmişdirsə, 2008-ci ildən sonra müsbət nəticələr həyata keçirilən müxtəlif layihələrin timsalında özünü göstərmiş, dövlətin mədəniyyət siyasətinin əsas prioritetinə çevrilmişdir.

**"Azərbaycan Respublikasının ikitərəfli əlaqələrində mədəni irsin qorunması, bərpası və təbliği"** adlanan II fəslin ilk yarımfəsli **"Azərbaycanın ikitərəfli mədəni əlaqələrində milli mədəniyyətin inkişaf etdirilməsi və təbliği siyasəti: əsas istiqamətlər"** adlanır. Dövlətin mədəniyyət siyasətinin mühüm istiqamətlərindən birini də heç şübhəsiz milli mədəniyyətin ölkədən kənarda vüsət tapması və təbliği, ölkənin mədəni özünəməxsusluğunun yad mədəni təsirlərdən qorunması təşkil edir. Yaramfəsildə qeyd olunmuşdur ki, artıq 1993-cü ildə Azərbaycanın dövlət müstəqilliyini tanıyan 116 dövlətdən 70-i onunla müxtəlif sahələrdə diplomatik əlaqələr qururdu. Mədəniyyət Nazirliyinin statistik məlumatlarına əsasən, 1996-2000-ci illərdə xarici ölkələrlə beynəlxalq mədəni əməkdaşlığın ən geniş formaları bunlar olmuşdur: qastrol və festivallarda, beynəlxalq sərgi və konfranslarda, yubiley tədbirlərində iştirak, işçi səfərləri, müsabiqələrdə iştirak, beynəlxalq görüşlər və beynəlxalq simpozium və seminarlarda iştirak, kurslar və təcrübəkeçmə, mədəni əməkdaşlıq

[33] Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası// [İnternet resursu] URL: https://www.e-qanun.az/framework/13373

haqqında nazirliklərarası saziş və protokollar, beynəlxalq proqramlarda iştirak.[34] Bütün bu əlaqələrin, mədəni əməkdaşlığın mərkəzində isə xalqın əsrlərdən bəri qoruyub saxladığı, gələcək nəsillərə ötürmək istədiyi zəngin mədəni irs, maddi və qeyri-maddi mədəniyyət nümunələri, onların qorunması və bərpası, eyni zamanda təbliği əsas yer tutmuşdur. Məlum olmuşdur ki, 90-cı illərin əvvəllərində ikitərəfli mədəni əlaqələrdə mədəni irsin qorunması, bərpası və təbliği sahəsində fəaliyyət zəif olsa da, 2008-ci ildən sonra vəziyyət xeyli dəyişmişdir. Azərbaycanın mədəni əlaqələri ikitərəfli əməkdaşlıqdan çoxtərəfli əməkdaşlığa doğru inkişaf etməyə başlamışdır. Bu da Azərbaycan mədəniyyətinin, zəngin irsinin dünya mədəniyyətinə inteqrasiya olunmasına şərait yaratmışdır.

II fəslin ikinci yarımfəsli "**Mədəni irsin qorunması, bərpası və təbliğində Heydər Əliyev Fondunun rolu**" adlanır. Heydər Əliyev Fondunun fəaliyyətə başladığı 2004-cü ildən bu günə qədər Azərbaycan mədəniyyətinin inkişafı, təbliği istiqamətində həyata keçirdiyi irimiqyaslı tədbirlər həm ölkəmizdə, həm də beynəlxalq aləmdə böyük rezonans doğurmuşdur. Fond tərəfindən Azərbaycan muğamının, aşıq, milli xalçaçılıq sənətinin, ədəbiyyat və mədəniyyət korifeylərinin dünyada təbliği, onların yubileylərinin beynəlxalq səviyyədə qeyd olunması mədəni əlaqələrin inkişafı, milli mədəni irsin mühafizəsi və təbliği istiqamətində atılan addımlardandır. Yarımfəsildə bu məqsədlə reallaşan müxtəlif layihələr öz əksini tapmış, Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təqdimatı məqsədilə həyata keçirilən tədbirlər geniş şərh olunmuşdur. Araşdırmalar onu göstərmişdir ki, tədqiq etdiyimiz 1991-2019-cu illər ərzində Heydər Əliyev Fondu ikitərəfli mədəni əlaqələrin inkişafında fəal və sistemli iş aparmış, gerçəkləşdirdiyi beynəlxalq layihələrlə milli mədəniyyətin qorunması və təbliğində yaxından iştirak etmişdir.

Dissertasiya işinin III fəsli **"Milli mədəni irsin qorunması, bərpası və təbliğində beynəlxalq təşkilatlarla əməkdaşlıq"** adlanır. "**Azərbaycanın mədəni irsinin qorunması və təbliği beynəlxalq**

[34] Ömərov, V. Müstəqillik illərində Azərbaycanın beynəlxalq mədəni əlaqələri // Səs qəzeti. – 2013, 15 noyabr. – s. 8.

**təşkilatlarla əməkdaşlığın əsas istiqaməti kimi (AŞ, Avropa İttifaqı, ICOM, ISESKO)"** adlanan birinci yarımfəsildə qeyd olunmuşdur ki, dünya arenasında əməkdaşlığını genişləndirən Azərbaycan, suveren dövlət kimi bir sıra beynəlxalq təşkilatların üzvüdür və istər iqtisadi-siyasi, istərsə də mədəni əlaqələrin qurulmasında bu təşkilatlarla münasibətlərə böyük önəm verir. Azərbaycanda beynəlxalq mədəni əlaqələrin inkişaf tarixində çoxtərəfli əməkdaşlığa yalnız müstəqillik illərində nail olunmuşdur. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası 30-dan artıq beynəlxalq və regional təşkilatın üzvü olmuşdur ki, onların da bir çoxu məhz mədəni əlaqələrin qurulması sayəsində baş vermişdir.

Bütün dövlətlərlə dostluğa və əməkdaşlığa xüsusi diqqət yetirən Azərbaycan, xarici siyasət kursunda beynəlxalq təşkilatlarla münasibətlərin qurulmasını və inkişaf etdirilməsini prioritet istiqamətlərdən biri hesab etmişdir. Xüsusən də mədəni irs sahəsində qurulan əməkdaşlıq ildən-ilə genişlənmiş, həm milli mədəni irsin mühafizəsi, həm də təbliği sahəsində mühüm və geniş miqyaslı layihələrin həyata keçirilməsinə şərait yaratmışdır.

III fəslin ikinci yarımfəsli **"Azərbaycan-YUNESKO münasibətlərində maddi və qeyri-maddi mədəni irs nümunələrinin qorunması və təbliği məsələsi"** adlanır. Azərbaycanın beynəlxalq mədəni əməkdaşlığında YUNESKO ilə əlaqələr mühüm yer tutur. Mədəni irsin mühafizəsi istiqamətində Azərbaycan-YUNESKO əlaqələri isə 1992-ci ildə yaradılmış Ümmumdünya İrs Mərkəzi vasitəsilə həyata keçirilir. Azərbaycan-YUNESKO münasibətlərinin inkişafında və genişlənməsində Heydər Əliyev Fondu və onun prezidenti Mehriban Əliyevanın rolu böyükdür. Beynəlxalq təşkilatlarla əməkdaşlıq vasitəsilə milli mədəniyyətin xarici ölkələrdə təbliğini özünün əsas fəaliyyət istiqaməti müəyyən edən Heydər Əliyev Fondunun xidmətləri sayəsində YUNESKO və Azərbaycan münasibətləri yeni inkişaf mərhələsinə keçmişdir.

Azərbaycan ərazilərinin ermənilər tərəfindən işğalı ilə əlaqədar ölkəmiz silahlı münaqişələr zamanı mədəniyyət abidələrinin və mülkiyyətin qorunması, qanunsuz şəkildə mənimsənilən mədəni mülkiyyətin onların sahibi olan ölkələrə qaytarılması məsələlərini

daim diqqətdə saxlamışdır. 1996-cı ildən etibarən rəsmi Bakı Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində tarixi irsin talan edilməsi haqqında YUNESKO-ya məlumat vermiş, bu mədəni irsin Azərbaycana qaytarılmasını təmin etmək üçün tədbirlər görülməsini xahiş etmişdir. Azərbaycanın Mədəniyyət Nazirliyi dəfələrlə işğal altındakı ərazilərdə tarix-mədəniyyət abidələrinin dağıdılmasına dair hesabat hazırlayaraq YUNESKO-ya təqdim etmişdir. YUNESKO isə Azərbaycana münasibətdə öz öhdəliyinə düşən vəzifələrə hər zaman laqeydliklə yanaşmışdır. Beləliklə, yarımfəsildə vurğulanan bütün konkret faktlar Azərbaycanla YUNESKO arasında əməkdaşlığın bir sıra detallarını müəyyənləşdirməyə imkan vermişdir.

III fəslin üçüncü yarımfəsli "**Tarixi-mədəni irsin qorunması və təbliğində Türk Mədəniyyəti və İncəsənətinin inkişafı üzrə Beynəlxalq Təşkilat- TÜRKSOY və Azərbaycan əməkdaşlığı**" adlanır. 1993-cü il 12 iyul tarixdə Almatıda 6 türk dövlətinin mədəniyyət nazirləri tərəfindən imzalanan protokol əsasında yaradılan Türk Mədəniyyəti və İncəsənətinin İnkişafı üzrə Beynəlxalq Təşkilat-TÜRKSOY türk dövlət başçılarının birgə əməkdaşlığının ilk praktiki nəticəsi idi. Zamanla TÜRKSOY-un fəaliyyətinə Azərbaycan tərəfdən diqqətin artması ilə təşkilatın işində Azərbaycan Respublikasının rolu da güclənmişdir. TÜRKSOY-un V toplantısında (1994, 28 may-3 iyun) Polad Bülbüloğlu təşkilatın baş direktoru seçilmişdir. Əgər TÜRKSOY yaranan zaman təşkilatın fəaliyyətində əsas ağırlıq Türkiyənin üzərinə düşmüşdürsə, 1994-1995-ci illərdən sonra digər türk dövlətləri, xüsusən də Azərbaycan öz fəallığı ilə seçilmişdir.

1999-cu ildə TÜRKSOY-un təklifi ilə Parisdə "Dədə Qorqud" eposunun 1300 illik yubileyinin qeyd olunması və YUNESKO-nun baş fəaliyyət proqramına daxil edilməsi, 1999-cu ilin "Dədə Qorqud" ili elan edilməsi, "Dədə Qorqud" ensiklopediyasının nəşr olunması mədəni əlaqələrin inkişafı yolunda atılan addımlardan idi. Təşkilatla əməkdaşlığın genişlənməsi Azərbaycan mədəniyyəti və incəsənətinin, zəngin mədəni irsinin ortaq türk mədəniyyətinin dəyərləri olaraq bütün türk ellərinə, o cümlədən bütün dünyaya yayılmasına şərait yaratmışdır.

III fəslin dördüncü yarımfəsli isə **“Azərbaycanın milli mədəni irsinə qarşı Ermənistanın təcavüzkar siyasətinin ifşası”** adlanır. Ermənistanın bəşəriyyətə və insanlığa qarşı yönələn terror siyasəti təkcə Azərbaycan torpaqlarının işğalı ilə bitməmiş, Azərbaycanın təbiətinə, bioloji müxtəlifliyinə, tarix və mədəniyyət abidələrinə də ciddi ziyan vurmuşdur. 1988-ci ildən sonra Azərbaycana qarşı erməni təcavüzünün nəticəsi olaraq torpaqlarımızın 20 faizi işğal edilmiş, ermənilər tarixi tikililərə qarşı özünəməxsus “soyqırımı” törətmiş, ən yaxşı halda isə onları erməniləşdirmişlər. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli qərarı ilə təsdiq edilmiş “Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri”nin, “Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri”nin və “Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri”nin siyahısına əsasən, 30 ilə yaxın Ermənistanın işğalı altında olmuş ərazilərimizdə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinin ümumi sayı 900-dən çoxdur. Bu ərazilərdə tarixi-dini abidələrin ümumi sayı 403-dür. Onların 67-si məscid, 144-ü məbəd, 192-si isə ziyarətgahdır.[35]

Azərbaycan dövləti uzun illər informasiya və əks-təbliğat işinin qurulmasını, dünya ictimaiyyəti və siyasi dairələrin diqqətini bu problemə cəlb etmək üçün genişmiqyaslı və müntəzəm tədbirlərin həyata keçirilməsini qarşısına əsas məqsəd kimi qoymuşdur. Azərbaycan tərəfi dəfələrlə YUNESKO-ya işğal ərazilərinə missiya göndərilməsi təklifi ilə müraciət etmişdir. Lakin Ermənistan həmişə bu missiyanın qarşısını almağa çalışmışdır. Çünki missiya həyata keçiriləcəyi halda mədəniyyət abidələrinə qarşı vandalizm hərəkətləri rəsmi şəkildə sənədləşdiriləcək və dünyaya çatdırılacaqdı. Bu, YUNESKO-dakı ermənipərəst mövqe və ikili standartları əsaslandırmaq üçün kifayət qədər tutarlı faktdır. Araşdırmalardan məlum olmuşdur ki, erməni işğalı nəticəsində dağıdılan tarixi mədəni abidələrin və mənimsənilən milli-mənəvi irsin dünya ictimaiyyətinə

[35] Ermənistanın Azərbaycan ərazilərində mədəni irsin məhv edilməsinə və saxtalaşdırılmasına yönələn cinayət əməlləri ümumilikdə bəşəriyyətə qarşı soyqırımıdır// “Azərbaycan” qəzeti. 2017, – 9 fevral.

çatdırılması dövlətin beynəlxalq təşkilatlarla qurulan əməkdaşlığının ana xəttini təşkil etmişdir.

Dissertasiya işinin "**Nəticə**" hissəsində tədqiqatın yekunu olaraq ümumiləşdirmə aparılmış, əldə olunan əsas elmi-nəzəri nəticələr göstərilmiş, mövcud problemlərin həlli yolları üçün konkret təklif və tövsiyələr verilmişdir. Araşdırma işi onu deməyə əsas verir ki, Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədəki siyası vəziyyət mədəniyyətin inkişafına mənfi təsir göstərsə də, bu sahədə bəzi islahatlar aparılmışdır. Xüsusilə mədəniyyətin statusunun müəyyənləşdirilməsi ilə bağlı Azərbaycan dövlətinin hüquqi-normativ sənədlərində edilən yeniliklər, mədəniyyət sahəsi ilə bağlı qəbul edilən qanunlar buna əyani sübutdur. Mədəniyyət və Turizm Nazirliyi bu sahənin inkişafı məqsədilə müxtəlif layihələr həyata keçirmiş, 2000-ci ilin yayında nazirliyin nəzdində mədəniyyət siyasəti şöbəsi fəaliyyətə başlamışdır. Əsas məqsəd Azərbaycan mədəniyyətinin nəzəri problemlərini araşdırmaq, beynəlxalq qurumlarla faydalı əməkdaşlığa nail olmaq və bu sahədə xarici ölkələrin təcrübəsindən yararlanmaq idi. Reallaşan bütün layihələrdə mədəni irsin mühafizəsi və idarə edilməsi, təbliği, bu sahədə beynəlxalq əməkdaşlıq prioritet olmaqla, ölkənin strateji inkişaf istiqamətlərindən biri kimi göstərilmişdir. 1991-2019-cu illər üzrə elmi araşdırmanın nəticəsi bunu bir daha sübut edir. Qeyd etmək vacibdir ki, dissertasiya işinin sonunda təqdim edilən təklif və tövsiyələr mədəni irsin qorunması, bərpası və təbliğində Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlığının daha müasir forma və metodlara uyğun şəkildə təşkilinə nail olmaqla, respublikamızda beynəlxalq əməkdaşlıq sahəsində mövcud olan aktual məsələlərin həllinə yönəlmişdir.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı elmi işlərdə öz əksini tapmışdır:**

1. Azərbaycanın beynəlxalq mədəni əməkdaşlığının qanunvericilik bazası // Geostrategiya, – 2019. № 6 (54). – s. 55-58.
2. Ortak dil ve kültürün türk dili konuşan ülkelerin uluslararası kültürel işbirliyi üzerine etkisi // “Bilge Tonyukuk Anısına” IX. Uluslararası Türk Dili Kurultayı, – Ankara: Türk Dil Kurumu Yayınları, – 2021. – II cilt, – s. 1785-1797.
3. Azərbaycanın milli mədəni irsinə qarşı erməni vandalizmi // “Azərbaycan Respublikası 30 ildə: Cənubi Qafqazın güc mərkəzi” Respublika elmi konfransın materialları, – Bakı: AMEA, – 2021. – s. 117-119.
4. Azerbaycan'ın tarihi kültürel mirasının korunması ve tanıtılmasında Uluslararası Türk Kültürü ve Sanatını Geliştirme Teşkilatı-TÜRKSOY ile işbirliği // 3rd International CEO Communication, Economics, Organization & Social Sciences Congress, – Ukraine, – 2021. – s. 118-125.
5. Beynəlxalq münasibətlərdə mədəniyyət amilinə elmi-nəzəri yanaşmalar // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – 2021. № 4 (76). – s. 305-310.
6. Intercultural dialog as an important means of international cultural relations of Azerbaijan // TURAN Stratejik Araştırmaları Merkezi Dergisi (TURAN-SAM), Kars, – 2021. № 49. – 128-135.

7. Qloballaşma və mədəni inteqrasiya şəraitində Azərbaycanın milli mədəni irsinin mühafizəsi. Qeyri-maddi mədəni irsin qorunması problemləri // Geostrategiya, – 2022. № 2 (68). – s. 5-12.
8. Tarixi abidə və qoruqların qorunması və təbliği sahəsində Azərbaycanın beynəlxalq əməkdaşlığı // Gənc tədqiqatçıların V Respublika elmi-praktik konfransın materialları, – Bakı: Azərbaycan Universiteti, – 2022. – s. 266-268.
9. The issue of protection and promotion of tangible and intangible cultural heritage in Azerbaijan-UNESCO relations // Sivilizasiya, – 2022. № 1 (50). – s. 13-24.
10. Etnik ve Kültürel Çeşitliliğin Korunması Bağlamında Azerbaycan'daki Ulusal Azınlıkların Kültürel Mirasının Korunması ve Tanıtılması // Uluslararası Yönetim Akademisi Dergisi, – Afyonkarahisar, – 2022. № 3. – s. 510-518.
11. Heydər Əliyev Fondunun layihələrində mədəni irs nümunələrinin qorunması, bərpası və təbliği məsələləri // Bakı Universitetinin xəbərləri/ humanitar elmlər seriyası, – 2022. № 3. – s. 120-133.
12. Maddi mədəni irs önəmli turizm resursu kimi // İnsan və biosfer (MaB, UNESCO). Azərbaycan milli komitəsinin əsərləri, – 2022 (17). – s. 209-219
13. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mədəni irsin bərpası və bu sahədə beynəlxalq əməkdaşlıq // – Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – 2024. № 2 (86), – s. 259 – 264.



Dissertasiyanın müdafiəsi ___13 mart___ 2025-ci il tarixində saat 10<sup></sup>

Dissertasiyanın müdafiəsi ___13 mart___ 2025-ci il tarixində saat ___10$^{00}$___-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED1.30/1 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1073, H.Cavid prospekti 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ___6___ ___fevral___ 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:

Kağızın formatı: A 5

Həcm:

Tiraj:100